# AZƏRBAYCAN RESPUBLİKASI
# MALİYYƏ NAZİRLİYİNİN KOLLEGİYASI

# QƏRAR (çıxarış)

*№ Q-13* *«29»noyabr 2010-cu il*

**Sığortaçıların və təkrarsığortaçıların tələb olunan kapitalının minimum məbləğinin müəyyən edilməsi haqqında Kollegiya qərarına dəyişiklik edilməsi barədə**

**1.** Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Kollegiyasının 2008-ci il 31 iyul tarixli Q-09 nömrəli Qərarının 2-ci bəndi aşağıdakı redaksiyada verilsin:

"2. Fəaliyyət göstərən sığortaçıların və təkrarsığortaçıların tələb olunan kapitalının minimum məbləğinin mərhələli qaydada artırılması aşağıdakı kimi müəyyən edilsin:

| Tələb olunan kapitalın minimum məbləğinin təmin edilməsi tələbinin qüvvəyə minmə tarixləri | Sığortaçılar üçün tələb olunan kapitalın minimum məbləği | Təkrarsığortaçılar üçün tələb olunan kapitalın minimum məbləği |
|---|---|---|
| 2011-cu il 01 yanvar | 3 (üç) milyon manat | 6 (altı) milyon manat |
| 2012-cu il 01 yanvar | 4 (dörd) milyon manat | 8 (səkkiz) milyon manat |
| 2013-cu il 01 yanvar | 5 (beş) milyon manat | 10 (on) milyon manat |

**2.** Bu qərar 01 yanvar 2011-ci il tarixdən qüvvəyə minir.

***Kollegiyanın sədri, Azərbaycan Respublikasının Maliyyə naziri***
**S. Şərifov**